*Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 11 aprel tarixli Fərmanı ilə təsdiq edilmişdir*

# Azərbaycan Respublikası Silahlı Qüvvələri Ali Baş Komandanının bayrağının təsviri

1. Azərbaycan Respublikası Silahlı Qüvvələri Ali Baş Komandanının bayrağı "Azərbaycan Respublikasının Dövlət bayrağı haqqında" Azərbaycan Respublikası Qanununun tələblərinə müvafiq olaraq, Azərbaycan Respublikası Dövlət Bayrağının təsvirinə tam uyğun şəkildə, ikiüzlü qumaşdan hazırlanır və eninin uzunluğuna nisbəti 1:2-dir.

2. Bayrağın hər iki üzünün ortasında Azərbaycan Respublikası Silahlı Qüvvələri Ali Baş Komandanının emblemi təsvir edilmişdir. Qumaşın üst kənarı boyu mavi zolaqda qızılı rəngli hərflərlə "AZƏRBAYCAN RESPUBLİKASI", aşağı kənarı boyu yaşıl zolaqda isə "SİLAHLI QÜVVƏLƏRİNİN ALİ BAŞ KOMANDANI" sözləri yazılmışdır.

3. Azərbaycan Respublikası Silahlı Qüvvələri Ali Baş Komandanının emblemi tiyələri yuxarı yönəlmiş çarpazlaşdırılmış qılıncların iti ucları arasında yerləşən Azərbaycan Respublikası Dövlət Gerbinin təsvirindən ibarətdir. Qılıncların tiyələrinin aşağı əsaslarından uclarına doğru hər iki tərəfə dəfnə budaqları yönəlmişdir. Dəfnə budaqları və qılıncların dəstəkləri qızılı, tiyələri isə gümüşü rəngdədir.

*"Azərbaycan Respublikası Silahlı Qüvvələri Ali Baş Komandanının bayrağının təsviri"nə əlavə*




Azərbaycan Respublikası Silahlı Qüvvələri Ali Baş Komandanının bayrağı

4. Azərbaycan Respublikası Silahlı Qüvvələri Ali Baş Komandanının bayrağının dirəyi girdə taxtadandır. Dirək tünd qəhvəyi boya ilə rənglənir, laklanır və yuxarı ucu aypara ilə səkkizguşəli ulduz formalı nikellənmiş metal başlıqla örtülür.

Azərbaycan.- 2019.-12 aprel.- S.2.